# APREL 2017

**SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 4 / 2017-ci il**

**Bu buraxılışda:**



Azərbaycan Prezidenti SOCAR Polymer layihəsini xüsusilə qeyd etdi

s.8



“SOCAR Polymer”in imkanları sahibkarlara təqdim edildi

s.10



Dövlət məmurları və nazirliklərin nümayəndələri Sumqayıt Kimya Sənaye Parkını ziyarət etdilər

s.13



İş vaxtının itkisi olmadan
4.922.869
adam/saat işlənmişdir

285
işçi

78,3%
PP zavodu – aprel ayına ümumi irəliləyiş

38,5%
YSPE zavodu – aprel ayına ümumi irəliləyiş

SOCAR POLYMER

# Baş direktorun müraciəti




Hörmətli həmkarlar!

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bizə şəxsən diqqət ayırıb şərəf verərək Nazirlər Kabinetindəki çıxışı zamanı SOCAR Polymer haqqında danışıb. Səylərimizi bir yerə cəmləşdirib məhsulu idxal etmədən daxili tələbatı qarşılamaq iqtidarında olan çox vacib sənaye sahəsinin yaradılması istiqamətində çalışırıq.

Bu ümdə vəzifəni yerinə yetirməklə biz həm də yüzlərlə adamın işlə təmin edilməsi və beləliklə də onların rifah halının yaxşılaşdırılması məsələsinə xidmət etmiş olacağıq. Bizim layihə həm də istehsalat zəncirinin növbəti halqaları üçün xammalın təmin edilməsi baxımından maraq kəsb edir.

Yeni obyektlər isə, istehlakçıları hazır məhsulla təmin etmək üçün yerli sahibkarlar tərəfindən yaradılmalı və idarə olunmalıdır. Layihəmizin maliyyələşdirmə sxeminin əsaslandığı unikal biznes formulu fəaliyyətə yeni başlayan bir çox şirkət üçün yaxşı nümunə olacaq və sərmayə mənbələri ilə bağlı bəzi əsas məsələlərin həll edilməsini asanlaşdıracaq.

Biz fəxr edirik ki, bu parlaq başlanğıc və fəaliyyətimizdə əldə edilən ciddi irəliləyiş bizi dövlət başçısının qarşımızda qoyduğu tapşırıqların yerinə yetirməsinə yaxınlaşdırır. Və prezidentimizin bizim ünvanımıza dediyi sözlər doğru yolda olduğumuzun ən bariz göstəricisidir. Cənab Prezident layihəmizin üstünlüklərini vurğulamış və hərəkət edəcəyimiz istiqaməti çox dəqiq göstərmişdir.

Beləliklə, aprel ayı prezidentin çıxışından ruhlandırılmış və onun qoyduğu məqsədlərin əldə edilməsinə yönəlmiş tədbirlərlə zəngin olmuşdur.

Biz cənab İlham Əliyevə Layihəmizə şəxsən göstərdiyi diqqətə görə minnətdarıq. Bu – bizim üçün şərəf və əldə edilmiş nailiyyətlərə verilən yüksək qiymətin ifadəsidir. Layihənin irəliləyişi hər birimizin və hamımızın göstərdiyi səylər və fədakarlıq nəticəsində mümkün olmuşdur, və bu da hamımıza göstərilən etimadın göstəricisidir. Bir yerdə səy göstərib çalışmasaq, biz bunlara nail ola bilmərik. Bir yerdə biz daha da çox iş görə və həmişə müvəffəqiyyət qazana bilərik.

**Fərid Cəfərov**





## Aprel 2017

# Tikinti sahəsindən görüntülər



# TİKİNTİ SAHƏSİNDƏ İŞLƏRİN GEDİŞATI

YSPE qurğusunun tikinti meydançasının əksər sahələrində dəmir-beton işləri (DBİ) davam etmişdir. Elektrik yarımstansiyasında transformator quraşdırılmışdır. Əridicilərin rekuperasiyası və Buxar kondensatı sahələrində boru stellajları üçün metal konstruksiyalarının quraşdırma işləri başlamışdır.

Polipropilen qurğusu və Mühəndis Şəbəkələri/Ümumzavod Təsərrüfat sahələrində:

- Laboratoriya, darvaza/NBM, ekstruziya qurğusu, inzibati və iş sexlərinin binalarında hörgü işləri davam etmişdir; Kimyəvi maddələr və qatqılar anbarının binasında daş hörgü işləri başlamışdır.
- Azot aqreqatı üçün özül və armatur quraşdırma işləri başa çatmışdır.
- Kimyəvi maddələr və qatqılar anbarının binasında yeraltı işlər başa çatmış, və hörgü işləri başlamışdır.
- İzobutan toplama hovuzunda DBİ işləri başa çatmış, torpaq doldurma işləri isə davam etmişdir.
- Birləşdirici boru stellajları üçün metal konstruksiyaların (MK) quraşdırma/montaj işləri başa çatmış, boru sisteminin və kabel tavalarının isə montajı başlamışdır.
- Yanğın nasosları binasında və su saxlama hovuzlarında su sızıntısı sınaqları aparılmışdır; metal konstruksiyaların quraşdırılması 90% başa çatmış, yanğın söndürmə nasoslarının quraşdırılması davam etmişdir.
- Vahid dispetçer otağında şitlərin quraşdırılması başlamışdır.
- Laboratoriya binasında damın quraşdırılması başlamışdır.

| Mart | Aprel ərzində irəliləyiş | Aprel |
|---|---|---|
|  | İnzibati bina. Hörgü işləri davam etdirilir |  |
|  | Torbalama və qablaşdırma binası. Çənlərin quraşdırılması başlamışdır |  |

| Mart | Aprel ərzində irəliləyiş | Aprel |
|---|---|---|
|  | Soyuducu qüllələr. DBİ başa çatmışdır. Boru sistemlərinin və avadanlığın quraşdırılması başlamışdır |  |
|  | Məşəl separatoru barabanı. Boru birləşdirmə işləri başlamışdır |  |
|  | Yan axın filtr aqreqatı. Çənlərin quraşdırılması başa çatmışdır. Boruların quraşdırılması başlamışdır |  |
|  | Polipropilen qurğusunun Quru Bölməsi/ Polimer tozu silosu. Çənlərin quraşdırılması başa çatmışdır |  |

| Mart | Aprel ərzində irəliləyiş | Aprel |
|---|---|---|



Homogenləşdirmə/ Qarışdırıcı silos.

Çənlərin quraşdırılması başa çatmışdır





Xam su çəni.

Çənin quraşdırılması başa çatmışdır





Mineralsızlaşdırılmış su çəni.

Çənin quraşdırılması başa çatmışdır





İzobutan üçün sferik çənlər.

Boru stellajlarının quraşdırılması başlamışdır və davam edir



| Mart | Aprel ərzində irəliləyiş | Aprel |
|---|---|---|



Boru dayaq şpallarının və kabel tavalarının quraşdırılması davam edir





Müvəqqəti yarımstansiya. Tikintisi başa çatmışdır. Kabellər birləşdirilmişdir





Anbar. Metal sütunların quraşdırılması başlamış və bu günə qədər 12 sütun quraşdırılmışdır



# Azərbaycan Prezidenti SOCAR Polymer layihəsini xüsusilə qeyd etdi



10 aprel 2017-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi.

İclası giriş nitqi ilə açan Dövlət başçısı hələ 2016-cı ilin axırlarında növbəti, 2017-ci ilin vəd etdiyi uğurları qabaqcadan gördüyünü xatırlatdı. Bu ilin təkcə 1-ci rübünün nəticələri Azərbaycanın sosial və iqtisadi həyatını bir çox sahələrinin yüksək templə inkişaf etdiyini nümayiş etdirdi.

İqtisadi vəziyyətə dair mülahizələrini davam etdirən Prezident vurğuladı ki, iqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bunlardan ilk ikisi müvafiq olaraq 2,4% və 2% artım nümayiş etdirmişdir. 2015-2016-cı illərin böhran illəri olduğuna və neft qiymətinin 3-4 dəfə düşdüyünə baxmayaraq iqtisadi durğunluqla bağlı risklər operativ surətdə təhlil edildi, ciddi islahatlar daxil olmaqla iqtisadiyyatımızı yenidən strukturlaşdırmaq və biznesi, investisiyaları və ixracı stimullaşdırma məqsədi ilə yaxşı əlaqələndirilmiş çevik profilaktik tədbirlər görüldü, deyə Prezident vurğuladı. Bildirildiyi ki, 2017-ci ilin 1-ci rübündə Azərbaycanın ticarət dövriyyəsi və ixracatı müvafiq olaraq 15 və 50% artmışdır. Məmnuniyyətlə qeyd olundu ki, qeyri-neft sektorunda ixracat 10%, ixracın ümumi həcmi isə 17% artmışdır. Prezident yerli məhsulun stimullaşdırılması, idxaldan asılılığın azaldılması və iqtisadi sabitliyin artırılması məqsədi ilə müəssisələr üçün əlverişli şəraitin yaradılması istiqamətində atılmış addımlara da diqqəti cəlb etdi. Bütün bunların nəticəsində, ölkəmiz Davos Ümumdünya İqtisadi Forumunun Qlobal Rəqabət İndeksi cədvəlində 37-ci yerə layiq görülmüşdür. İnkişaf edən ölkələr arasında isə, iqtisadi rəqabət baxımından Azərbaycan 1-ci, 2-ci yerləri bölüşür.

İxtisarlanmış 9000 iş yeri müqabilində, bu il dövlət və özəl sektorlarda artıq 85 min yeni iş yeri yaradılmışdır

ki, bunlardan 70.000-i daimi iş yeridir. Bu faktı Prezident iqtisadi inkişafın təzahürü olaraq vurğulamışdır.
İclasda eləcə də Azərbaycanın Müdafiə sənayesi naziri Yavər Camalov, Azərbaycan Dəmir yolları QSC-nin sədri Cavid Qurbanov və Azərbaycan Xəzər gəmiçiliyi QSC-nin sədri Rauf Vəliyev çıxış etdilər.
İclas Prezident İlham Əliyevin yekun sözü ilə başa çatdı. Həmin çıxışda o, sənaye istehsalını və kənd təsərrüfatını əsas prioritet sahələr olaraq səciyyələndirdi və ölkənin bölgələrində Mingəçevir, Pirallahı və Balaxanıda Sənaye Parklar, Sumqayıtda Kimya Sənaye Parkı və Texnologiyalar Parkı, Neftçala və Masallıda isə Sənaye Məhəllələri kimi sənaye zonalarının yaradıldığını qeyd etdi.
Diqqətəlayiq odur ki, yekun nitqində Prezident SOCAR Polymer layihəsini xüsusilə qeyd etdi:

**“Mən sahibkarların diqqətini böyük bir layihəyə cəlb etmək istəyirəm. Bu, Sumqayıt Kimya Sənaye Parkında yaradılmaqda olan “SOCAR Polymer” zavodudur. Bu, çox nəhəng sənaye müəssisəsidir, yüz milyonlarla dollar sərmayə qoyulur və çox gözəl məhsul istehsal edəcək. Bu məhsul əlbəttə, həm daxildə istifadə olunacaq, həm də ixracyönümlüdür. Ancaq mən qeyd etməliyəm ki, bu xammalın əsasında çox ciddi bir sənaye sahəsi yaradıla bilər. Biz demək olar ki, indi bütün hazır plastik məhsulları xaricdən idxal edirik. Ancaq “SOCAR Polymer”in işə düşməsindən sonra Azərbaycanda hazır məhsul istehsal etmək üçün yaxşı imkanlar yaranır və bu, biznes üçün də çox gəlirli bir sahə olacaq. Ona görə, bizim dövlət qurumlarına müraciət edirəm, onlar sahibkarlara bunu daha da yaxşı başa salsınlar ki, “SOCAR Polymer”in bir çox hazır məhsulu əsasında zavodlar, fabriklər yaradıla bilər. Bu, həm yeni iş yerlərinin yaradılması deməkdir, həm də sahibkarlara əlavə gəlir gətirəcək və bizim ixrac məhsulumuz da daha böyük qiymətə xarici bazarlara çıxarılacaq. Əgər belə olmasa, “SOCAR Polymer”in məhsulu ancaq xammal kimi xaricə satılacaq. Əlbəttə, bu da yaxşı haldır, amma əminəm ki, mənim məsləhətim nəzərə alınacaqdır”.**

Prioritet təşkil edən məsələlər sırasında Prezident Azərbaycanın ixrac potensialının artırılmasını vurğuladı və qeyri-neft məhsullarının ixracını stimullaşdırmaq məqsədi ilə bu istiqamətdə görülmüş islahatları qeyd etdi. Beynəlxalq sərgilərdə iştirak etməmiz, Azərbaycan brendli malların dünyada təbliğ edilməsi, xaricdə Ticarət Palatalarının açılması və ixrac-ticarət missiyalarının təşkil edilməsi də bu məqsədə xidmət edir. Dövlət başçısı həmçinin “Made



in Azerbaijan” brendinin tanıtdırılması məqsədilə xarici kütləvi informasiya vasitələrində reklam kampaniyalarının aparılmasının vacib olduğunu vurğuladı. Məqsəd – hal-hazırda ixrac edilən məhsul çeşidlərini müxtəlifləşdirmək məqsədilə yeni ixrac bazarlarına çıxmaqdan, logistika mərkəzləri yaratmaq üçün yeni bazarlar tapmaqdan və ümumiyyətlə 2017-ci ildə hələ ki, davam edən müsbət dinamikanı qoruyub saxlamaqdan ibarətdir.

# "SOCAR Polymer"in imkanları sahibkarlara təqdim edildi



Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında verdiyi tapşırığa uyğun olaraq İqtisadiyyat Nazirliyi və SOCAR şirkəti sahibkarlarla görüş təşkil etdi. "SOCAR Polymer"in istehsal edəcəyi məhsulun ölkəmizin istehsalat sahəsində yaradacağı yeni imkanların sahibkarlara təqdim edilməsi məqsədilə təşkil olunmuş bu işgüzar görüş 14 aprel 2017-ci il tarixində Bakı Biznes Mərkəzinin konfrans zalında keçirildi. Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə yanaşı, kütləvi informasiya vasitələrinin nümayəndələri və 50-dən çox sahibkar iştirak etdi.

Tədbirdə açılış nitqi ilə çıxış etmiş iqtisadiyyat naziri Şahin Mustafayev iqtisadiyyatımızın müxtəlifləşdirilməsi, ixrac potensialının artırılması, idxalın isə yerli istehsal ilə əvəz olunması istiqamətində məqsədyönlü işlərin görüldüyünü qeyd etdi. Sumqayıt Kimya Sənaye Parkının ən böyük layihələrindən biri olan "SOCAR Polymer"in icra vəziyyətinin dövlət başçısının daim nəzarətində olduğunu qeyd edən nazir bu layihənin ölkəmiz üçün əhəmiyyətindən danışdı. "SOCAR Polymer" MMC-nin istehsalı olan polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) ixrac olunmaqla yanaşı, yerli müəssisələrin, kiçik və orta sahibkarların xammala tələbatını ödəyəcək və onların inkişafına stimul verəcək. Nəticədə, hazırda idxal olunan yüzlərlə adda məhsul ölkə daxilində istehsal ediləcək. Qeyd olundu ki, Prezidentin tapşırığına əsasən, bu müəssisənin məhsulları hesabına yeni zavod və fabriklərin, istehsal sahələrinin yaradılması məqsədilə sahibkarlar arasında geniş təbliğat işləri aparılmalı, iş adamları "SOCAR Polymer"in məhsulları ilə tanış edilməlidir.



SOCAR-ın prezidenti Rövnəq Abdullayev "SOCAR Polymer" layihəsinin əhəmiyyəti barədə danışaraq, müəssisənin ölkədə digər sənaye sahələrinin inkişafına təkan verəcəyini vurğuladı. "Alternativ enerjinin payı dayanmadan artmaqdadır. Artıq 40-50 ildən sonra neftə olan tələbat azalacaq. Bu səbəbdən də kimya sənayesinin inkişafına böyük önəm verilməlidir. Azərbaycan kimyasının gələcəyi perspektivlidir. Bu səbəbdən də sahibkarları kimya sənayesində reallaşdırılan layihələrdə yaxından iştirak etməyə dəvət edirəm", - deyə R.Abdullayev qeyd etdi. Layihənin Azərbaycanda sahibkarlığın inkişafına töhfə olduğunu, özəl şirkətlərin layihəyə cəlb edildiyini diqqətə çatdıran SOCAR prezidenti burada istehsal olunacaq PP və YSPE-nin yerli şirkətlər tərəfindən istehlak mallarına çevrilməsinə yaradacağı imkanlardan bəhs etdi. Qeyd olundu ki, qeyri-neft sənayesinin ən iri və aparıcı müəssisələrindən olacaq "SOCAR Polymer"in məhsulları sahibkarlıq subyektlərinin xammalla təchizatında əhəmiyyətli rol oynayacaq, ölkənin ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcək.

"Azərikimya" İB-nin Müşahidə Şurasının sədri Muxtar Babayev qurumun fəaliyyəti və nəzərdə tutulan tədbirlər, "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktor müavini Zaur Məmmədov isə parkda yaradılan şərait, sahibkarların səmərəli fəaliyyəti üçün qurulan infrastruktur, tətbiq olunan güzəştlər və rezidentlər haqqında məlumat verdilər.

"SOCAR Polymer" MMC-nin direktoru Fərid Cəfərov öz təqdimatında həm şirkət barədə, həm də istehsal olunacaq



polimerlərin xammal qismində hansı növ malların istehsalı üçün tətbiq oluna biləcəyi barədə ətraflı məlumat verdi. Həmin hazır istehlak mallarının konfrans zalı qarşısında quraşdırılmış nümayiş stendində sərgiləndiyini qeyd edən F.Cəfərov sahibkarları xam polimerlər əsasında yeni istehsalat müəssisələrinin yaradılması istiqamətində əməkdaşlığa dəvət etdi.

Sonra, "SOCAR Polymer"in istehsal edəcəyi məhsullardan istifadə imkanlarına dair müzakirələr aparıldı və sahibkarların sualları cavablandırıldı.

Tədbir çərçivəsində Sumqayıt Kimya Sənaye Parkının yeni 10-cu rezidenti "STDC" MMC-yə qeydiyyat şəhadətnaməsi təqdim edildi.

# Sumqayıt Kimya Sənaye parkında Press Tur keçirildi

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında SOCAR-ın Sumqayıtda həyata keçirdiyi layihələrin icrası ilə bağlı müsbət fikirlər söyləyib, sahibkarlara tövsiyələr verdi. Həmin layihələr çərçivəsində görülən işlər və layihələrin cari statusu ilə tanışlıq məqsədilə 13 aprel 2017-ci il tarixində bir sıra aparıcı kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələrindən ibarət jurnalistlər qrupu üçün Sumqayıt Kimya Sənaye Parkına Mətbuat Turu təşkil olundu. Səfər zamanı KİV nümayəndələri SOCAR-ın həyata keçirdiyi layihələrlə, o cümlədən "SOCAR Polymer"in layihəsi ilə tanış oldular.
Sumqayıt Kimya Sənaye Parkının (SKSP) direktor müavini Zaur Məmmədov jurnalistlərə verdiyi açıqlamasında Parkın 2011-ci ildə yaradılmasına və qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, artıq bir sıra rekorda imza atdığını qeyd etdi. Burada "SOCAR Polymer" MMC şirkəti daxil olmaqla, ümumi investisiyalarının həcmi 1,2 milyard dollar təşkil edən 10-a yaxın şirkət "Parkın rezidenti" statusunu almışdır ki, bu da regionda rekord göstəricidir. "SOCAR Polymer ümumiyyətlə SKSP-nın ən nəhəng layihəsidir," Z.Məmmədov vurğuladı. Rezident-müəssisələr ABŞ, Almaniya, Avstriya, Türkiyə, Cənubi Koreya, Çin texnologiyaları əsasında işləyir.

Ümumi ərazisi 466,37 hektar təşkil etdiyi Parkın 167,66 hektar ərazisində yeraltı infrastruktur şəbəkəsi inşa olunaraq tamamlanıb və istismara verilib. Parkın daxili avtomobil yollarının, Peşə Tədris Mərkəzinin, ərazidaxili elektrik xətlərinin isə tikinti-quraşdırma işləri davam etdirilir. Öncə "Azərikimya" İB-yə gələn media nümayəndələri Birliyin Etilen-polietilen zavodunda istehsalat sahələri və əsas qurğularla tanış olub, aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat əldə etdilər. Qeyd olundu ki, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" şirkəti tərəfindən polipropilen və yüksək sıxlıqlı polietilen qurğularının inşa olunması ilə əlaqədar olaraq, "EP-300" istehsalatında yenidənqurma işlərinin keçirilməsinə, habelə yeni qurğu və köməkçi istehsalatların yatadılmasına ehtiyac yaranmışdı. İlkin mərhələdə "EP-300" qurğusunda məhsuldarlığın ildə 135 min tondan 190 min tona yüksəlməsi, yeni qurğuların tikilməsi hesabına hidrogenin qatılığının 90 %-dən 99,9 %-ə çatdırılması, idarəetmə sisteminin yeniləşdirilməsi nəzərdə tutulur. Torpaq və bünövrə-hazırlıq işləri artıq tamamlanıb, geoloji və torpaq tədqiqat işləri isə yekunlaşmaq üzrədir. Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə ictimai dinləmələr keçirilib. Mühəndislik, detallı layihələndirmə işləri davam etdirilir. Jurnalistlərə verdiyi müsahibədə zavodun direktoru Oqtay Niftəliyev bildirdiyi kimi, SOCAR Polymer ilə Azerikimya arasında bağlanmış müqaviləyə əsasən, ildə 120 min ton etilen və 190 min ton propilen məhsulu təmin olunacaq.

Sonra KİV nümayəndələri Sumqayıt Kimya Sənaye Parkı ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində tikilən qurğularla tanış oldular. Bildirildi ki, layihə üzrə işlərin



ümumilikdə 60%-i başa çatdırılmışdır. Layihə polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən 2 böyük qurğunun inşa edilməsini və ildə 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilenin istehsal edilməsini nəzərdə tutur. Tikinti işlərinə 2600-dən çox insan cəlb edilib. Polipropilen qurğusunun tikinti işləri 50% yerinə yetirilib. Bura avadanlıqların quraşdırılması, boruların çəkilməsi, dəmir-beton, elektrik və dəmir konstruksiya işləri aiddir. YSPE qurğusunun dəmir-beton, metal konstruksiya və boruların hazırlanması işləri qrafik üzrə davam edir. "SOCAR Polymer" şirkətinin baş direktoru, Fərid Cəfərov jurnalistlərə verdiyi müsahibəsində bildirmişdir ki, bu layihə nəticəsində istehsal olunacaq polipropilen və polietilen bir çox müxtəlif sahələrdə, o cümlədən tibb ləvazimatları istehsalı sənayesi və yüngül sənayedə, polietilen isə boru kəmərləri və plastmasların çeşidli növlərində istifadə oluna biləcək. LiondellBasell və İneos şirkətlərinin lisenziarlar kimi çıxış etməyi məhsulun ən yüksək beynəlxalq standartlarına uyğun olacağının təminatıdır.

Jurnalistlər həmçinin istehsal gücü illik təxminən 650-660 min ton məhsul olan Karbamid zavodunu ziyarət etdilər. Zavodun direktoru, Xəyal Cəfərovun sözlərinə görə, zavodun əsas məhsulu olan azot gübrəsi ölkədaxili tələbatı tam ödəyəcək, və təxminən 400-500 min ton izafi məhsul xarici bazarlara ixrac olunacaq. Əsas hədəf bazarı kimi isə Türkiyə, habelə Qara və Ağ Dəniz ölkələri nəzərdə tutulur. Tikinti işləri artıq təxminən 94% həcmində icra edilib və zavodun 2018-ci ildə istismara verilməsi planlaşdırılır.
Press-turun sonunda jurnalistlərə məlumat verildi ki, Sənaye Parkında istehsal olunacaq məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara da ixrac ediləcək. Artıq "Azertexnolayn" zavodunun istehsal etdiyi məhsulun 50%-dən çoxu ixrac edilib. Daha 5 müəssisə bu il, 2 müəssisə isə 2018-ci ildə fəaliyyətə başlayacaq. Mövcud layihələr üzrə rezidentlər tərəfindən sənaye parkında 2000-ə yaxın iş yerinin açılması nəzərdə tutulur. Parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir.

# Dövlət məmurları və nazirliklərin nümayəndələri Sumqayıt Kimya Sənaye Parkını ziyarət etdilər



20 aprel 2017-ci il tarixində prezident aparatının nümayəndələri və müvafiq nazirliklərin rəhbər şəxsləri Sumqayıt Kimya Sənaye Parkını (SKSP) ziyarət etdilər. Tədbirin məqsədi tikilməkdə olan zavodlarla tanış olaraq əlaqədar məsələləri müzakirə etmək idi. Tədbirdə prezident administrasiyası rəhbərinin müavini Əli Əsədov, maliyyə naziri Samir Şərifov, iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov, iqtisadiyyat naziri Şahin Mustafayev, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, SOCAR-ın "Azərikimya" İB-nin müşahidə şurasının sədri Muxtar Babayev, Karbamid zavodunun direktoru Xəyal Cəfərov, SOCAR Polymer şirkətinin baş direktoru Fərid Cəfərov, və digər məsul şəxslər iştirak etdilər. Qonaqları SKSP ofisində qarşılayaraq, M.Babayev Parkın infrastrukturu,









rezidentlərə təqdim olunan güzəştlər və görülən işlər barədə məlumat verdi. Qonaqlar Karbamid zavodunun, habelə Polipropilen və Yüksək Sıxlıqlı Polietilen zavodlarının tikinti meydançalarını ziyarət etdilər. Daha sonra tədbir iştirakçıları Azərikimya şirkətinin ofisinin akt zalında qapalı görüş keçirdilər. Görüşdə karbamid və polimer zavodlarına dair ətraflı təqdimatlar verildi, zavodlarla bağlı işlərin cari vəziyyəti və qısa zamanda həlli tələb olunan müvafiq məsələlər müzakirə olundu. Akt zalının girişində quraşdırılmış nümayiş stendində tədbir iştirakçılarının diqqətinə təqdim olunmuş xam polimerlərdən istehsal oluna biləcək müxtəlif çeşidli istehlak malları ölkədə yaradıla biləcək istehsalat sahələrinin dairə genişliyini təsvir edirdi. Tədbir səmərəli nəticələr verdi.

# SOCAR Polymer ilə sahibkarlar arasında əməkdaşlığın perspektivləri

Azərbaycanda polimerin istehsalı nəticəsində yaranacaq biznes imkanlarının sahibkarlarla geniş müzakirə edildiyi tədbirdən sonra bəzi şirkətlər bu mövzuya həqiqi maraq göstərmişlər. Karvan-L şirkətinin nümayəndəsi SOCAR Polymer-in baş direktoru Fərid Cəfərovla əlaqə saxlamış və əməkdaşlıq imkanlarını müzakirə etmək üçün onun ofisinə baş çəkmişdir.
20 aprel 2017-ci ildə milli televiziya kanalı SOCAR Polymer-in, Karbamid zavodunun, Sumqayıt Kimya Sənayesi Parkının (SKSP) və Karvan-L şirkətinin rəhbər nümayəndələrini studiyaya dəvət edərək Azərbaycanda sənayenin inkişafı, habelə sənaye park rezidentlərinin yaratdığı əlverişli şəraitdə yeni yerli sahibkarlıq subyektlərinin yaranması mövzuları ətrafında fikir mübadiləsini işıqlandırdı.
Azərbaycanda biznesin həyata keçirilməsi üçün əlverişli şəraitin olmasına diqqət çəkən Karvan-L şirkətinin rəhbəri Əbülfəz Qafarov islahatların, beynəlxalq forumların və ixracatçılara verilən dəstəyin müsbət təsirlərini vurğuladı. Uzun müddətdir Azərbaycanda fəaliyyət göstərən Karvan-L elm-istehsalat şirkəti indi dünyanın 30 ölkəsinə mal ixrac edir. Həmin ölkələrin siyahısına MDB, Avropa ölkələri, Argentina, Braziliya, Yaponiya və hətta dünyanın ən böyük ixracatçısı olan Çin daxildir. Əbülfəz Qafarov beynəlxalq bazardakı rəqabətə girməyin çətinliklərini qeyd etdi.
O, 14 aprel tarixində yerli sahibkarların iştirakı ilə keçirilmiş tədbirin müsbət nəticəsini və əhəmiyyətini vurğuladı. Bu tədbirdə SKSP-də istehsalat obyektlərinin yaratdığı imkanlar haqqında əldə edilmiş geniş məlumat əsasında Karvan-L şirkətinin mühəndis-layihəçiləri, texnoloqları və mühəndis-smetaçıları yerli istehsala və istehlak mallarının ixracına yönəlmiş yeni biznes layihələrini planlaşdırmağa başladılar. Əbülfəz Qafarov məhsuldar və qarşılıqlı faydalı əməkdaşlığa ümidvar olduğunu və Fərid Cəfərovla görüşünün nəticələrindən çox razı qaldığını bildirdi.




https://www.youtube.com/watch?v=DxO-clIxiEw

Öz növbəsində Fərid Cəfərov bir daha sahibkarları yeni layihə təkliflərini təqdim etməyə dəvət etdi və uzunmüddətli xammal təchizatı, habelə ümumi texniki, mühəndislik və ya maliyyə məsələlərinə dair, o cümlədən layihənin maliyyə planlaması və bank dəstəyinin əldə edilməsinə dair məsləhətlər vasitəsilə yeni istehsalatın başlaması proseslərinə dəstək verməyə hazır olduğunu bildirdi.
F.Cəfərov qeyd etdi ki, plastik malların bəzi istehsalçıları artıq SOCAR Polymer ilə əlaqə saxlamağa başlamışdır və qiymətlər uzunmüddətli müqavilə bağlandığı halda tələb olunan polimer məhsulunun növündən asılı olaraq razılaşdırılacaq.
Sumqayıt Kimya Sənayesi Parkının direktor müavini Zaur Məmmədov bir daha vurğuladı ki, SOCAR Polymer müxtəlif spesifikasiyalara uyğun polimerlər istehsal edəcək, bununla da xam polimerlərdən müxtəlif çeşiddə malların istehsalına imkan yaranacaq. O bildirdi ki, SKSP-ə də sahibkar və istehsalçılardan, o cümlədən xarici şirkətlərdən sorğular daxil olur. O, həmçinin qeyd etdi ki, yerli şirkətlər həm yerli, həm də xarici bazarlarda satış üçün məhsul istehsal etmək məqsədilə xam polimerlərdən istifadə edə bilər. Zaur Məmmədov həmçinin vurğuladı ki, təkcə SOCAR Polymer-in məhsulları əsasında orta hesabla 30 yeni kiçik və ya orta müəssisə yaradıla bilər, və bu çoxalma prosesləri üçün münbit şərait yaratmaq məqsədilə SKSP yeni müəssisələrlə dialoqu daha da intensiv və interaktiv şəkildə qurmağı planlaşdırır. O, istehsala başlama ideyaları kimi istifadə oluna biləcək hazır layihə planlarının İqtisadiyyat Nazirliyi, SOCAR, SOCAR Polymer və SKSPnin birgə səylərini əsasında işlənib hazırlanmasını və potensial tərəfdaşlar üçün sərgiləndirilməsini təklif etdi.
İqtisadiyyatın kimya sahəsinin inkişafına diqqət çəkən Fərid Cəfərov həmçinin məşğulluq nöqteyi-nəzərindən əhaliyə olan faydaları vurğuladı. Statistik təhlil göstərir ki, hər 100 ton neftin istehsalı təxminən 2 nəfərin işə cəlb olunmasını tələb etdiyi, etilenin polimer qranulasına çevrilməsi mərhələsində isə bu rəqəm 10 nəfərə qalxdığı halda, polimer qranulalarından istehlak mallarının istehsal edilməsi hər 1000 tona 50 nəfərin işə cəlb olunmasını tələb edir. Məhz buna görə də F. Cəfərovun fikrincə, istehsal zəncirinin sonuncu mərhələsini təşkil edən kiçik müəssisələr yeni iş yerlərinin açılması baxımından daha məhsuldar olur.
Kimya sənayesinin cari inkişaf tendensiyaları haqqında məlumat yaymaq məqsədi daşıyan yuxarıda qeyd edilmiş televiziya verilişinin videoyazısına SOCAR Polymer-in "youtube" kanalında baxmaq olar.

# SOCAR Polymer 4-cü Beynəlxalq Xəzər Enerji Forumunda




4th INTERNATIONAL
CASPIAN
ENERGY
FORUM
APRIL 12, 2017
BAKU

Xəzər Avropa Klubu (CEC) ilə Caspian Energy Beynəlxalq Media Qrupunun təşkilatçılığı ilə 12 aprel 2017-ci il tarixində Bakıda keçirilmiş 4-cü Beynəlxalq Xəzər Enerji Forumunda dünyanın 20 ölkəsindən 500 nümayəndə iştirak etdi. Xəzər, Qara və Baltik dənizləri regionunun və Azərbaycanın dövlət idarələri, nazirlikləri, iri beynəlxalq şirkətləri, komitə və agentliklərinin, habelə Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik missiya və beynəlxalq təşkilatlar nümayəndələrinin iştirakı ilə keçirilən bu Forumun məqsədləri haqqında danışan Xəzər Avropa Klubunun Sədrinin birinci müavini və Baş icraçı direktoru Telman Əliyev əsas məqsədin biznes ilə dövlət sektorunun arasındakı əlaqələrin möhkəmləndirilməsindən ibarət olduğunu vurğuladı. SOCAR Polymer şirkətini baş maliyyə analitikləri Babək Beydullayev və Elçin Məmmədov, və kiçik maliyyə analitikləri Nigar Cəbrayılova, Aqil Rəhimov və Natiq Kərimov təmsil edirdilər.

Forum plenar iclaslar formasında keçirilirdi. Milli Məclis sədrinin müavini



və Təbii Resurslar, Energetika və Ətraf Mühit Komitəsinin sədri Valeh Ələsgərovun sədrliyi ilə keçirilmiş birinci plenar iclas Azərbaycanda aparılan iqtisadi islahatların nəticələrinə, habelə Xəzər, Qara və Baltik dənizləri vasitəsilə dünya enerji bazarlarına inteqrasiyanın bütün aspektlərinə həsr olunmuşdu. Enerji, nəqliyyat və infrastruktur layihələrində Azərbaycanın mühüm rolu, genişlənən qaz hasilatı sektoru, Cənub dəhlizi layihələri və Xəzər dənizinin resurs potensialı məruzəçilərin, nümayəndələrin və forum iştirakçılarının diqqət mərkəzində saxlanırdı.

1-ci plenar iclasda çıxış edənlər arasında Prezidentin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov, Dövlət Gömrük komitəsinin sədri Aydın Əliyev, Dövlət Standartlaşdırma, Metrologiya və Patentlər Komitəsinin sədri Ramiz Həsənov, Azərsun Holdinqin müşahidə şurasının sədri Əbdülbari Gözəl, Veysəloğlu şirkətlər qrupunun prezidenti Aydın Talıbov, Polymart Ltd. şirkətinin direktorlar şurasının sədri Rəşad Məmmədov və R.İ.S.K. şirkətinin baş direktoru Cabir Cümşüdov da var idi. Bu plenar iclasda, Babək Beydullayev Azərbaycanda həyata keçirilən neft-kimya layihələrinə, o cümlədən SOCAR Polymer və SOCAR GPC layihələrinə, habelə Azərikimya İB-nin və H.Əliyev adına Bakı Neftayırma Zavodunun müasirləşdirilməsinə dair icmal təqdim etdi. Azərbaycanda orijinal maliyyələşdirmə modelinə əsaslanan ilk layihəyə imza atmış SOCAR Polymer şirkətinin uğur tarixçəsi haqqında məruzə edən B.Beydullayev nə SOCAR-dan, nə də Azərbaycan hökumətindən layihənin başa çatdırılmasına dair heç bir zəmanətin verilmədiyini vurğuladı və layihənin digər təfərrüatları haqqında danışdı. SOCAR Polymer layihəsi haqqında geniş məlumat verərkən, şirkətimizin nümayəndəsi suveren zəmanət, "İnşa et-İşə sal-Təhvil ver" və korporativ kredit kimi müxtəlif maliyyələşdirmə modellərinə toxundu, layihə maliyyələşdirmə modelinin ənənəvi korporativ maliyyələşdirmə ilə müqayisədə üstünlüklərini və çatışmazlıqlarını qeyd etdi və sabit qiymətli açar-təslim kontraktlarının üstünlüklərini vurğuladı.

Milli Məclisin İqtisadiyyat, Sənaye və Sahibkarlıq Komitəsinin sədri Ziyad Səmədzadənin sədrliyi altında keçirilmiş və qeyri-neft sektorunun, biznesin və hökumətlə dialoqun inkişafına həsr olunmuş Forumun 2-ci plenar iclasında qeyri-neft sektorunun müxtəlif sahələrində, o cümlədən maliyyə, bank, sığorta, lizinq, telekommunikasiya, turizm, maşınqayırma və inşaat sahələrində innovasiyaların tətbiq edilməsi məsələləri müzakirə edildi.

Xəzər və Qara dəniz hövzəsinin aparıcı şirkətlərini bir araya gətirəcək növbəti Xəzər Enerji Forumu 2017-ci ilin dekabr ayında Praqada keçiriləcək. Bundan başqa, Xəzər və Qara dəniz hövzəsində fəaliyyət göstərən şirkətlər ilə Şimali və Cənubi Amerikalar arasında dialoqun əsasını qoymaq məqsədilə 2017-ci ilin payızında Bakıda ilk dəfə Xəzər-Amerika Forumu keçiriləcək.



# Qazprombankın biznes-missiyası Azərbaycan şirkətlərini əməkdaşlığa dəvət edir






13 aprel 2017-ci il tarixində Qazprombank Rusiya İxrac mərkəzi ilə birgə Qazprombank Qrupun Bakıda fəaliyyət göstərdiyi sənaye obyektlərinin biznes-missiyasını təşkil etdi. Tədbir Rusiya Federasiyasının Azərbaycandakı Ticarət nümayəndəliyinin dəstəyi ilə keçirildi. Tədbir zamanı, iştirakçılar neft-kimya, neft və qaz, yanacaq və energetika, dağ-mədən və metallurgiya kimi milli və xarici iqtisadiyyatın əsas sektorları üçün nəzərdə tutulan unikal texnoloji avadanlığın və kompleks mühəndis həllərinin təmin edilməsi daxil olmaqla Qazprombank Qrupun sənaye obyektlərinin təklif etdikləri xidmətlər haqqında məlumat aldılar.

Biznes nümayəndə heyəti Qazprombank, United Machine Engineering Plants (dövlət səhmdar şirkəti), REP Holding SC, "УКУЗТМ-КАРТЭКС" şirkəti, ERİELL GROUP, ENTER Engineering Group, Ingenix Group və "Innovative oil-gas technology" MMC şirkətlərinin nümayəndələrindən ibarət idi. Tədbirdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin nümayəndələri və Azərbaycanın neft və qaz, neft-kimya, energetika, dağ-mədən və metallurgiya sənaye sahələrini təmsil edən ən iri şirkətlərin təmsilçiləri də iştirak edirdilər.

"Bizim ölkələr arasında əsas komponentini biznes təşkil edən tarixi xoş tərəfdaşlıq əlaqələri var. Biznes sahəsindəki əməkdaşlığımız çox səmərəli surətdə inkişaf etməyə davam edir. Əminəm ki, bu biznes-missiya Azərbaycanda həyata keçirilən layihələrə yeni təkan verəcək və Qazprombankın Respublikadakı fəaliyyət dairəsinin genişləndirəcək", deyə Qazprombankın birinci vitse-prezidenti A.Kaznaçeyev bildirdi.



Onun sözlərinə qüvvət olaraq "SOCAR Polymer" MMC-nin Baş Direktoru Fərid Cəfərov Qazprombankla əməkdaşlıq sahəsində əldə edilmiş müsbət təcrübə haqqında danışdı və dedi: “Biz SOCAR Polymer şirkətində Qazprombankın təklif etdiyi layihə maliyyələşdirmə modelinin uğurla tətbiq etdiyimizə görə fəxr edirik. Bu bank SOCAR Polymer layihəsində bizim borcverənimiz idi, indi isə o, SOCAR Polymer GPC layihəsi çərçivəsində məsləhətçimizə çevrilir. Biz Azərbaycandakı həmkarlarımıza həmişə sifarişçinin xidmətində olmaq istəyən peşəkarlardan ibarət olan kollektivlə - Qazprombankla əməkdaşlıq etmələrini təkidlə tövsiyə edirik”.

“Qazprombank Azərbaycan sahibkarlarını onların rəqabətə davam götürmə qabiliyyətlərini artıracaq yeni texnologiyalarla təmin etməyə hazırdır. Bir çox ölkə neft qiymətlərinin kəskin surətdə azalması nəticəsində düşdükləri şokdan artıq özlərinə gəlmişdir. İndi onlar investisiya proqramlarından və rentabelliliyin artırılmasından istifadə etməklə inkişafa nail olmaq istəyirlər. Belə olan halda, məhsulların modernləşdirilməsi, şübhəsiz ki, qlobal bazarda rəqabətə davam gətirmək qabiliyyətinin gücləndirilməsi üçün əsas amilə çevrilir”, deyə A.Kaznaçeyev bildirdi. Qazprombankın birinci vitse-prezidentinin sözlərinə görə, son 2 il ərzində bu bank Azərbaycanla əlaqədar fəaliyyətinə ciddi diqqət yetirir. O dedi: “Məhz buna görə, biz Rusiyanın bütün iri müəssisələrini əhatə edən Rusiya-Azərbaycan biznes şurasının üzvlüyünə daxil olmuşuq. Heç şübhəsiz bu, Azərbaycanla iqtisadiyyat və investisiya sahələrində əməkdaşlıq da daxil olmaqla geniş diapazonlu məsələlərin müzakirə edilməsinə imkan verən səmərəli bir



platformadır”.

Qazprombank Qrup təkcə maliyyə bazarında deyil, o həm də qiymətli metallar, neft və qaz, tikinti və digər bazarlarda da fəaliyyət göstərən bir çox şirkəti öz strukturunda cəmləşdirir. Beynəlxalq tədbirlərin biznes missiya formatında keçirilməsi əməkdaşlıq etməkdə maraqlı olan tərəflər arasında dialoqun qurulması üçün banka yaxşı imkan verir.

# SOCAR-ın 2-ci Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft Emalı, Neft-Kimya" Forumu




25-28 aprel 2017-ci il tarixlərində Bakıda SOCAR-ın dəstəyi, Bakı Ali Neft Məktəbinin (BANM) və Böyük Britaniyanın "Confidence Capital Ltd" şirkətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft Emalı, Neft-Kimya" Forumu keçirildi.

Beynəlxalq forumun məqsədi – Xəzər və Mərkəzi Asiya regionunda karbohidrogen ehtiyatlarının ticarəti və satışı məsələləri üzrə ən son tendensiyalar və inkişaf perspektivlərinin təhlil edilməsi olmuşdur. Tədbir zamanı sözügedən regionların başlıca ixrac bazarları, yerli və ixrac tələblərinin xüsusiyyətləri, xarici kommersiya axını və neft limanları, boru xətləri və dəmir yolları daxil olmaqla maddi-texniki infrastrukturu barədə təqdimatlar edildi və müzakirələr aparıldı.

Forumda Azərbaycanın dövlət və hökumət nümayəndələri, SOCAR-ın rəhbər heyətinin və strukturlarının rəhbərləri, millət vəkilləri, Qazaxıstan, Qırğızıstan, İran, Rusiya, Türkmənistan, Türkiyə, Ukrayna, Gürcüstan və digər ölkələrin sahə nazirlikləri və transmilli neft-qaz şirkətlərinin nümayəndələri iştirak etdilər. Xəzər regionunda neft-qaz üzrə ilin ən əhəmiyyətli tədbirinə bu ölkələrdən 150-dən artıq iştirakçı – neft və qazın hasilatı, emalı və logistikası sahələrində fəaliyyət göstərən beynəlxalq şirkətlərin rəhbərləri və əməkdaşları, treyderlər, analitiklər, bank strukturlarının nümayəndələri qoşuldular.

Açılış mərasimindən öncə Forumun iştirakçıları Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət edərək, heykəli önünə əklil və gül dəstələri qoydular.

Forumun ilk iclasını açan Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Forum iştirakçılarını və qonaqları salamlayaraq müxtəlif ölkələrdən gəlmiş mütəxəssislər arasında işgüzar əlaqələrin yaradılması baxımından bu tədbirin səmərəli olacağını vurğuladı.

Forumun açılış mərasimində ölkəmizin Prezident Administrasiyasının Humanitar Siyasət Məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Nazirlər Kabineti Aparatının Neft və kimya şöbəsinin müdiri Əsgər Aslanov, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri Valeh Ələsgərov, SOCAR Strateji inkişaf üzrə vitse-prezidenti Tofiq Qəhrəmanov, BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli və "Confidence Capital Ltd" şirkətinin baş direktoru Andrey Rudenko da iştirak etdilər.

Forumun ilk gününün sessiyaları Azərbaycanın neft-



qaz strategiyasına və neft-kimya sahəsinin inkişaf tendensiyalarına həsr olundu.
Azərbaycan Respublikasının Energetika naziri Natiq Əliyev hazırkı dövrdə dünyanın enerji xəritəsini və Azərbaycanın enerji siyasətinin uğurlarını qeyd edərək, logistika, neft emalı və neft-kimya sahələrində həyata keçirilən möhtəşəm layihələrin perspektivlərini açıqladı.
SOCAR-ın fəaliyyəti və planları haqqında şirkətin Birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə geniş məruzə təqdim edərək, Azərbaycanda neft hasilatının tarixi və Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət göstərməsi nəticəsində SOCAR-ın biznes fəaliyyətinin ölkənin hüdudlarından kənarda genişləndiyi haqqında danışdı.
"Azərikimya" İB-nin Müşahidə Şurasının sədri Muxtar Babayev öz çıxışında Azərbaycanın neft-kimya sahəsinin inkişafının strateji xəttini açıqlayaraq, hazırda bu sahədə həyata keçirilən layihələrin perspektivləri haqqında Forum iştirakçılarını məlumatlandırdı.
"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov Xəzər regionunda ən möhtəşəm logistika mərkəzinin fəaliyyəti və inkişaf konsepsiyası haqqında fikirlərini bölüşərək, yeni yaradılan Ələt Azad Ticarət Zonasının Azərbaycanın qeyri-neft sektorunun inkişafına və yükdaşımaların ticarət dövriyyəsinin artmasına ciddi töhfə verəcəyi barədə məlumat verdi.
1-ci günün gündəliyinə həm də müasir neft-kimya sənayesinin inkişafı istiqamətində, Azərbaycanda həmmərz sənaye sahələri zəncirlərinin yaradılmasında və Azərikimya/Petkim iri miqyaslı regionlararası neft-kimya müəssisələri sisteminin idarə olunmasında SOCAR Polymer-in və Azərikimya İB-nin əldə etdikləri təcrübəni əks etdirən təqdimatlar daxil edilmişdi. Bununla əlaqədar, SOCAR Polymer şirkətinin maliyyə direktoru Fuad Əhmədov SOCAR Polymer və SOCAR GPC layihələri, və eləcə də H.Əliyev adına Bakı neftayırma zavodunun və Azərikimya İB-nin müasirləşdirilməsi də daxil olmaqla Azərbaycanda həyata keçirilən neft-kimya layihələrinə dair icmal təqdim etdi. Azərbaycanda bu cür maliyyələşdirmə modeli əsasında ilk layihəyə imza atmış SOCAR Polymer şirkətinin uğur tarixçəsi haqqında məruzə edən F.Əhmədov nə SOCAR-dan, nə də Azərbaycan hökumətindən layihənin başa çatdırılmasına dair heç bir zəmanətin verilmədiyini vurğuladı və layihənin digər təfərrüatları haqqında danışdı.
Forum 3 gün ərzində 8 sessiyada müxtəlif mövzular üzrə öz işini davam etdi. Xəzər regionunun neft emalı və neft-kimya sahələrinin icmalına həsr olunmuş 7-ci sessiyada, SOCAR-ın Karbamid zavodunun direktoru Xəyal Cəfərov, "Azərikimya" İstehsalat Birliyinin Modernizasiya və Yenidənqurma şöbəsi rəisinin müavini Fəzail Yusifov, SOCAR-ın Emal Layihələrinin İdarə Edilməsi şöbəsinin böyük mühəndisi Mətin Rəhimov, "Caspian Barrel" Neft Tədqiqatları Mərkəzinin direktoru İlham Şabanov, "SOCAR Methanol" MMC-nin baş direktoru Elnur Mustafayev və "Emerson LLC" şirkətinin Türkiyə və Cənubi Xəzər üzrə baş meneceri Burak Gürkan müxtəlif mövzularda məruzələr təqdim etdilər.
Forumun yekun sessiyasında isə MDB ölkələrində Biznes İnkişafı Mərkəzinin rəhbəri Mixail Babkinin və "Pentair Valves & Controls" şirkətinin regional meneceri Fərrux Öznur Çelikkolun "Səmərəliyin artırılması üçün ən yeni texnologiyalar" mövzusuna aid məruzələri dinlənildi.

# SOCAR Polymer şirkəti 2017-ci ilin Yay Təcrübəsi proqramına start verdi

SOCAR Polymer şirkətinin təşəbbüsü ilə 2016-cı ildə başlanan Yay Təcrübəsi proqramından 13 gənc faydalanmış və öz həyatlarını ilk qiymətli iş təcrübəsi ilə zənginləşdirmişdir. Daha sonra, təcrübəçilərdən 5-i şirkətdə işə qəbul olunmuş və beləliklə də öz peşəkar karyeralarına olduqca gözəl bir start vermişlər.

Uğurla sınaqdan keçmiş keçən ilki yay təcrübəsi proqramını davam etdirmək niyyəti ilə SOCAR Polymer 2017-ci ilin Yay Təcrübəsi proqramında iştirak etmək üçün ərizələrin qəbulunu elan etmişdir.

SOCAR Polymer şirkətində keçirilən təcrübə proqramı şirkət haqqında sadəcə daha dolğun təsəvvür almaq üçün bir vəsilə deyil. Bu, həm də bacarıq və təcrübə əldə etmək, və özünü şirkətin həyata keçirdiyi mühüm işlərdən birinə həsr etmək üçün cəlbedici və dəyərli bir imkandır.

Proqramın davam etdiyi 12 həftə ərzində təcrübəçilər ixtisaslı bir kollektivin üzvləri olaraq real iş təcrübəsi əldə edəcəklər. Həmin on iki həftə ərzində təcrübəçilər şirkət və onun fəaliyyəti haqqında məlumat alacaq, yeni bacarıqlara yiyələnəcək və icraatda olan layihələrə öz töhfələrini verəcəklər.

Təcrübə dövrünə tam həcmli tanışlıq kursu ilə başlayan təcrübəçilər daha sonra real layihə üzərində işləyən kollektivə qoşulacaqlar. Təcrübənin böyük hissəsinin iş yerlərində keçirilməsi ilə yanaşı biz fərdi ünsiyyət-qurma bacarıqlarını aşılamaq üçün də çox saylı təlimlər keçirəcəyik. Təcrübə dövrü ərzində həm təlim sessiyaları, həm də obyektlərə sahə ziyarətləri təşkil olunacaq. Bununla yanaşı, mütəxəssislərlə görüşmək və onların peşəkar rəyləri ilə tanış olmaq üçün də çoxlu imkanlar yaradılacaq.

Misilsiz təcrübə və sərfəli saathesabı əmək haqqı ilə bərabər bu proqram təcrübəçilər üçün aşağıdakı imkanları yaradacaq: şirkət haqqında daha geniş təsəvvür əldə etmək, kollektivin işinə qoşulmaq, təcrübəyə əlavə olaraq həm maaş, həm də ödənişli məzuniyyət əldə etmək, peşəkar inkişafda irəliləyişə nail olmaq və s.
Yay Təcrübəsi proqramına dair ətraflı məlumat www.socarpolymer.az saytında təqdim olunmuşdur.



# Bir sıra ali təhsil ocağında SOCAR Polymer-in 2017-ci il Yay Təcrübəsi Proqramının təqdimatı keçirildi

SOCAR Polymer şirkətində gənc mütəxəssislərin yetişdirilməsi və təlimatlandırılması, inkişafa və karyera yüksəlişinə dəstək məsələləri daim diqqət mərkəzində saxlanılır. 2016-cı ildə həyata keçirilmiş Yay Təcrübəsi proqramının müsbət nəticələrini nəzərə alaraq, şirkətimiz bu il də təhsildə müvəffəqiyyətli olan tələbələri bu dəyərli imkandan istifadə edərək, fərdi karyera inkişafı yolunda sıçrayışa nail olmağa dəvət edir. Hədəf qrupuna daxil olan ali təhsil müəssisələrinin tələbələrini proqram haqqında ətraflı məlumatlandırmaq məqsədilə şirkətimizin İnsan Resursları şöbəsi aşağıdakı tədbirləri həyata keçirmişdir.

18-20 aprel 2017-ci il tarixlərində həmkarlarımız – Təlim və İnkişaf (Tİ) üzrə baş mütəxəssis Nərgiz Səlimova, Tİ mütəxəssisi Afaq İsmayılova və Tİ koordinatoru Aylar Mustafayeva bir sıra ali təhsil müəssisələrini, o cümlədən Sumqayıt Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetini (ADNSU) ziyarət edərək "SOCAR Polymer" şirkətinin 2017 Yay Təcrübə Proqramının təqdimatını həyata keçirdilər. Təqdimatda şirkətimizin tarixçəsi, fəaliyyəti və gələcək planlarına dair geniş məlumat verildi, yay təcrübə proqramının təfsilatı açıqlandı və namizədlərin mərhələli seçiminə dair qaydalar izah edildi. Təcrübə proqramına maraq göstərən gənclərin istehsalata dair texniki suallarını cavablandırmaq üçün şirkətimizin Proses Mühəndisi Mətin Hüseynli də bu tədbirlərə qoşuldu.

Aprelin 18-də Sumqayıt Dövlət Universitetində (SDU) tələbələrlə keçirilmiş görüşdə universitetin Elm və İnnovasiyalar üzrə prorektoru professor Ramazan Məmmədov nümayəndələrimizi salamlayaraq, ali məktəbin inkişaf mərhələlərindən bəhs etdi və müasir dövrdə milli təhsilin Avropa təhsilinə inteqrasiyası, dünya standartlarına uyğunluğu, savadlı insan kapitalının hazırlanması istiqamətində ali məktəbin əlaqəli müəssisələrlə birgə fəaliyyətinin vacibliyini qeyd etdi: “Gənclər bu gün kimya sənayesinin ən vacib və məsul sahələrində əhəmiyyətli dərəcədə təmsil olunurlar. Kadr resurslarının gəncləşdirilməsi artıq bir tendensiyaya çevrilmiş və davamlı xarakter daşıyır.” Bu əlaqələr tələbələrə təcrübə qazanmaq imkanı verməklə yanaşı, onlar arasında gələcəkdə həmin müəssisədə çalışmaq arzusunda olanlara verilən növbəti dəstəkdir. SDU tələbələrinin "SOCAR Polymer" MMC-də təcrübə keçərək işlə təmin olunması regionun kadr potensialının inkişafına öz töhfəsini vermiş olacaq. Tədbirin sonunda tələbə və məzunları maraqlandıran suallar nümayəndələrimiz tərəfindən cavablandırıldı, mövzu ətrafında maraqlı fikirlər səsləndirildi.

Aprelin 19-da Bakı Ali Neft Məktəbində (BANM) keçirilmiş












tədbirdə ali məktəbin rektoru Elmar Qasımov və “SOCAR Polymer” MMC-nin baş direktoru Fərid Cəfərov iştirak etdilər. Tədbiri açan E.Qasımov qonaqları salamlayaraq, bu layihəni ölkəmizin gələcəyinin, iqtisadiyyatımızın, qeyri-neft sektorunun və sənayenin inkişafı kimi qiymətləndirdi. O, həmçinin “SOCAR Polymer” zavodunun tikilməsi nəticəsində yeni mühəndis kadrlara tələbatın artacağını qeyd edərək, bununla BANM tələbələri üçün daha geniş iş imkanlarının yaranacağını diqqətə çatdırdı. Sonda rektor BANM ilə SOCAR Polymer arasında qurulan əməkdaşlığın “Kimya mühəndisliyi” ixtisası üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması və “ömürboyu təhsil” konsepsiyası çərçivəsində biliklərin yayılmasına böyük təkan verəcəyini bildirərək, sözü SOCAR Polymer şirkətinin baş direktoru Fərid Cəfərova verdi. İngilisdilli yüksək ixtisaslı mütəxəssislər hazırlayan BANM kimi ali təhsil ocağı ilə əməkdaşlıq qurmaqdan şad olduğunu bildirən F.Cəfərov BANM-də yetişdirilən gələcək mühəndis kadrlarının Azərbaycan sənayesinin parlaq gələcəyinə zəmin yaratdığını vurğuladı və yay təcrübə proqramı haqqında həvəsləndirici qeydlərini səsləndirdi. SOCAR Polymer Layihəsinin Birləşmiş İdarəetmə Heyətində “Fluor” podratçı şirkətini təmsil edən Layihə direktoru Yan de Vriz çıxış edərək Fluor şirkətinin rolu və vəzifələri, habelə layihə çərçivəsində icra etdikləri iş prosesi haqqında danışdı. Tədbirdə həmçinin 2016-cı ilin Yay Təcrübə proqramının qalibləri – Gülnar Hüseynli, Nicat Qasımov, Elvin Əlişov və Rəvan Kərimli SOCAR Polymer şirkətində qazandığı təcrübə və uğurları barədə məlumatla, habelə təcrübəçi qismində təəssüratları ilə paylaşdılar və gələcək namizədlərə məsləhətlər verdilər.

Aprelin 20-də ADNSU-də keçirilmiş tədbirdə ümumi təqdimat çərçivəsində verilmiş məlumata əlavə olaraq, 2016-cı ilin yay təcrübə proqramının müsabiqə qaliblərindən biri olan və hazırda SOCAR Polymer şirkətində Xərclərə Nəzarət üzrə Kiçik Mütəxəssis vəzifəsində çalışan Jalə Fərzəliyeva, keçdiyi sınaq yolu, təcrübə müddətində qazandığı nailiyyətlər, şəxsi inkişafı və karyera irəliləyişi barədə geniş söhbət açdı və tələbələrə istiqamətləndirici tövsiyələr verərək uğurlar arzuladı.

Təhsil ocaqlarının hər birində yay təcrübə proqramı maraqla qarşılandı və tələbələri proqram barədə hərtərəfli məlumatlandırmaq məqsədi uğurla yerinə yetirildi.








# Gələcək zavod operatorlarına peşə təlim sertifikatları təqdim olundu







28 aprel 2017-ci il tarixində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) baş ofisində keçirilən tədbirdə SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) Sumqayıt Təlim Mərkəzində kurs keçmiş və ən yüksək (100) bal toplamış 11 məzuna sertifikatlar təqdim olundu. Bu məzunlar SOCAR Polymer zavodlarının gələcək operatorları olacaqlar. Sertifikatları təqdim edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev öz nitqində, ölkə Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, şirkətdə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mühüm addımların atıldığını bildirdi.

SOCAR-ın kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov TTSİ-nin tərkibində olan 5 təlim-tədris mərkəzi və 1 qaynaq mərkəzində mühəndis-texniki işçilər üçün ixtisasartırma, yenidən hazırlanma, ikinci peşəyə yiyələnmə, maarifləndirmə və təlimatlandırma kurslarının keçirildiyini qeyd etdi. X.Məmmədov həmçinin vurğuladı ki, TTSİ nüfuzlu beynəlxalq inspeksiya və akkreditasiya qurumlarının tələblərinə uyğun şəkildə çox mühüm kursları müstəqil olaraq keçirmək və məzunları sertifikatlaşdırmaq hüququnu verən akkreditasiya prosesindən keçmiş və müvafiq sertifikatlara layiq görülmüşdür.

**Sertifikatlarla təltif olunmuş 11 məzun aşağıdakılardır:**

**Kazımov Elməddin**
**Sədiyev Rəqib**
**Bayramov Şamil**
**Ağcayev Şahməmməd**
**Kərimov Hikmət**
**Qurbanlı Kamran**
**Xəlilov Füzuli**
**Qabilov Səid**
**Qarayev Etibar**
**Abitov Rasim**
**Əliyev Yelmar**

# 28 aprel – Ümumdünya Əməyin Təhlükəsizliyi və Gigiyenası Günü

28 aprel hər il qeyd edilən, bütün dünyada istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin qarşısının alınmasına həsr edilmiş Ümumdünya əməyin təhlükəsizliyi və gigiyenası günüdür. Bu gün SƏTƏM problemlərinin böyüklüyünə beynəlxalq diqqət yetirmək üçün nəzərdə tutulmuş məlumatlılıq kampaniyasıdır və təhlükəsizlik və sağlamlıq mədəniyyətinin necə təşviqi və yaradılması istehsalatda ölüm və xəsarət hallarının sayının azaldılmasına kömək edə bilər.

Bu gün, 28 aprel 2017-ci il tarixində fürsətdən istifadə elədərək SƏTƏM komandamıza təşəkkür edir, bu günə qədər sahədə 4.000.000-dan çox təhlükəsiz iş saatının tamamlanması nailiyyətinə görə öz minnətdarlığımızı bildiririk.

Üzümüzü SƏTƏM komandasının üzvlərinə tutaraq deyirik:

Erik Strefford
Xalid Qasımov
Elşən Rəhimov
Seymur Quluyev
Fuad İlyasov

Güllər Tağıyeva
Əhməd Əliyev
Sənan Kərimov
Vyaçeslav Romanov
Kamran Ramazanzadə




Bizləri (və nəticədə, bizim ailələrimizi) TƏHLÜKƏSİZ, SAĞLAM SAXLADIĞINIZA və bu səbəbdən SEVİNDİRDİYİNİZƏ GÖRƏ sizə öz təşəkkürümüzü bildiririk!

# SOCAR Polymer layihəsinin youtube kanalı

Yazılı və foto materiallarla müqayisədə video çarxların malik olduğu üstünlüklərdən faydalanmaq məqsədilə bir ildən artıqdır ki, biz SOCAR Polymer şirkətinin Youtube kanalını yaratdıq. O gündən bəri, bizim internet səhifəmizlə yüzlərlə istifadəçi maraqlanmışdır; statistika göstərir ki, bu günə qədər səhifəmizə ümumilikdə 9650 nəfər daxil olmuş ki, bunlardan təqribən 3989 nəfəri (yəni, 41%-i) 2017-ci ilin əvvəlindən bəri veb-saytı ziyarət etmişdir. Bu rəqəmlər şirkətimizə cari ilin birinci rübündə artan marağın ifadəsidir. Bundan əlavə, rəqəmlərə baxanda belə qənaətə gəlmək olar ki, şirkət ingiliscə danışan şəxslər arasında kifayət qədər populyardır, çünki ən çox baxılan “SOCAR Polymer şirkəti haqqında prezentasiya filmi”nin ingilis dilli variantı eyni video-çarxın Azərbaycan dilli variantına nisbətən 45% çox tamaşaçı cəlb etmişdir. Digər ƏN ÇOX BAXILAN video-çarxlar arasında SOCAR Polymer-in tikinti meydançasında 2016-2017-ci illər ərəfəsində əldə edilmiş irəliləyişin səssiz təsvirinə həsr olunmuş videomaterialı, habelə milli televiziyanın SOCAR Polymer fəaliyyətinin müxtəlif aspektlərinə, o cümlədən xarici dilin tədrisini vurğulayan şirkətdaxili ixtisasartırma təlimləri, məhsuldarlıq və təhlükəsizlik texnikası standartları, istedadlı gəncləri dəstəkləmək məqsədilə təşkil edilən yay təcrübə proqramı kimi mövzulara həsr edilmiş ətraflı videomaterialları qeyd etmək olar. 2016-cı ilin dekabrında hökumət səviyyəsində keçirilmiş rəsmi görüşlərdə və 2017-ci ilin aprelində təşkil edilmiş iqtisadi və sənaye əhəmiyyətli tədbirlərdə Prezident İlham Əliyevin layihəmiz haqqında səsləndirdiyi mülahizələri əks etdirən videomateriallar da böyük maraqla izlənir. İnternet şəbəkəsinə bu günə kimi yüklədiyimiz 20 video-çarxda SOCAR Polymer rəhbərliyinin iştirak etdiyi tədbirləri, Baş Direktorun verdiyi müsahibələri və şirkətin fəaliyyəti haqqında digər təfərrüatı əks etdirən seçmə materiallar nümayiş etdirilir.

Youtube kanalımızda abunəçilərin sayı 60-ı aşmışdır. Zavodun istismara verilməsi və ilk məhsulun buraxılması tarixləri yaxınlaşdıqca, abunəçi sayının daha da tez artacağı gözlənilir.

Şirkətimiz haqqında ən uğurlu video-çarxlara tamaşa etmək üçün “YouTube”-dakı rəsmi SOCAR Polymer kanalımıza abunə olun.














# Küləyə qalib gəl!

2017-ci ildə SOCAR H.Əliyev Fondunun təşəbbüsü Dənizkənarı bulvar idarəsinin və Bakı Olimpiya stadionunun dəstəyi ilə təşkil edilən müasir idman tədbirlərindən olan Bakı marafonlarında iştirak etmək ənənəsini davam etdirmişdir.

SOCAR Polymer şirkətinin işçiləri baş direktor Fərid Cəfərovun göstərdiyi həqiqətən ilhamverici nümunədən son dərəcə ruhlanaraq həmin enerji dolu idman tədbirində iştirak etdilər. Aprelin 30-da, marafonçuluq ruhu SOCAR Polymer kollektivinin əməkdaşlarını Dövlət Bayraq Meydanında topladı.



İstənilən çətinliyin öhdəsindən gəlmək əzmi ilə dolu inadkar qaçıcılarımız - Fərid Cafarov, Qi Lombarts, Elizabet Villerob, Fidan Hüseynova, Qabil Mikayılov, Tarıyel Bağışov, Ceyms Çau, Tərlan Abıyev, Samir Cavadov və Mətin Hüseynli - finiş xəttinə çatdılar. Amma, necə deyirlər - əsas məsələ qələbə çalmaq deyil, iştirak etməkdir! Odur ki, biz çətinliklərə baxmayaraq cürət edib Bakı-2017 Marafonunda qüvvələrini sınamış bütün əməkdaşlarımızla fəxr edirik.

Maksimum 4,5 saata hesablanmış və Dövlət Bayraq Meydanından Bakı Olimpiya stadionundakı finiş xəttinə qədər 21 km uzunluğunda olan marafon səhər saat 10:00-da başladı. Marşrutunun uzunluğu baxımından Bakı-2017 Marafonu yarım-marafon məsafəsi hesab oluna bilər.

Tam marafon məsafəsinin hal-hazırkı rəsmi uzunluğu – 42,195 km – IAAF təşkilatı tərəfindən 1921-ci ildə qəbul edilmişdir. Güman edilir ki, həmin rəqəm 1908-ci il London Olimpiadasında öz dramatik finişi ilə yadda qalmış marafon zamanı müəyyən edilmişdir. Həmin marafonun lideri ağır yorğunluqdan və susuzluqdan əziyyət çəkən italyan qaçışçısı Dorando Pyetri son qüvvəsini toplayıb finiş xəttinə qaçdığı zaman səhv istiqamətə dönür və yerə yıxılır. 75.000-dən artıq azarkeşin, müxbirin və marafon rəsmisinin mövcud olduğu stadionun gözləri qabağında hakimlər idmançıya ayağa qalxmağa kömək edir və onu düzgün istiqamətə yönəldir. Bundan təqribən on dəqiqə sonra Pyetri marafon rəsmilərinin köməyi ilə ayaqları dolaşa-dolaşa finiş xəttini keçir və birinci yeri qazanır.



Fərid Cəfərov
Qi Lombarts
Elizabet Villerob
Fidan Hüseynova
Qabil Mikayılov



Tariyel Bağışov
Ceyms Çau
Tərlan Abıyev
Samir Cavadov
Mətin Hüseynli

Bəhruz Hacıyev
Elman Baxış
Tural Əliyev
Sona Ramazanova
İlahə Hacıyeva

# Elektrotexnika işləri

28 aprel 2017-ci il tarixində quraşdırma işləri başa çatdıqdan sonra polipropilen qurğusunun orta-gərginlik paylayıcısına konservasiya gərginliyi verildi. Söz müdaxilədən qorunma səviyyəsi IP42 olan 12kV, 50A-lik paylayıcı qurğudan gedir. Bu avadanlığın zavod şəraitində qəbul etmə sınaqları 2016-cı ilin sentyabr ayında icra edilmişdi. Daha sonra, avadanlıq sahəyə çatdırılıb quraşdırılmışdı.

Bu arada, həm PP, həm də YSPE qurğularını qidalandıracaq Yarımstansiyaya aparan xəndəyin uzunluğu boyunca maksimum 35 meqavat gücündə elektrik enerjisi daşıyacaq 6,3 kV-luq qidalandırıcı kabellərin çəkilməsi işləri başa çatdırılmışdır. Xəndəyin torpaqla doldurulması davam edir. 20km uzunluğunda orta gərginlikli kabel tikinti sahəsinə 2017-ci ilin mart ayının sonunda çatdırılmışdı.











# Polipropilen zavodunun tikinti meydançasında Quru bölmənin quraşdırma işləri davam edir

Tikinti meydançasında işlər qrafikə uyğun olaraq davam edir. Avadanlıq gətirilir və Polipropilen (PP) qurğusunun Quru bölməsində quraşdırılır. Belə ki, iki ədəd Aralıq Toplama Silosu və bir ədəd Toz Qarışdırıcı Silos daxil olmaqla toplam üç silosun quraşdırılması uğurla başa çatdırılmışdır. Diametri 5 m, uzunluğu isə 17 m olan həmin silosların iri qabaritlərini nəzərə alaraq həmin avadanlığın quraşdırılmasında ağır (300 ton yükqaldırma qabiliyyəti olan) kranlardan istifadə olunmuşdur. Hər silosun həcmi 320 $m^3$ təşkil edir.

PP qurğusunun Quru bölməsini daha təfsilatlı təsvir etmək üçün qeyd etməliyik ki, polipropilen məhsulu propilen qazının katalizator sistemində polimerləşdirilməsi yolu ilə istehsal olunur. Polimerləşdirmədən sonra polimer tozu katalizatorlardan, qalıq monomerlərdən və həlledicilərdən təmizlənərək, təmiz və quru toza çevrilir. Məhz bu mərhələdə ardıcıl istehsalat prosesi artıq Quru bölməyə keçərək davam edir. Bu bölmə həm də Yekunlaşdırma bölməsi adlanır. Polimer tozu Quruducudan pnevmatik üsulla azotla bərabər (azot oksidləşmənin qarşısını almaq məqsədilə tətbiq olunur) əvvəlcə Aralıq Toplama Silosuna, oradan isə əridici Ekstruderdən bir neçə səviyyə yuxarıda yerləşən Ekstruder qıfına ötürülür – bizim zavodda o, ekstruder binasının damında yerləşir. Ekstruder vaxtaşırı texniki qulluq üçün (məs., bıçaqların əvəz edilməsi üçün) dayandırıldığı hallarda, həmin siloslar polimer tozlarını dövri hərəkətə gətirməklə onları təxminən 18 saat ərzində özündə saxlaya bilərlər. İstehsal prosesinin növbəti mərhələsində əldə edilən polimer tozu ekstruziya üsulu ilə polipropilen qranulalarına çevrilir və bundan sonra torbalara doldurulub qablaşdırılır.

# PP və YSPE-nin istifadə sahələri

Polipropilen və Yüksək Sıxlıqlı Polietilen dənələri şpris, qapaq və başlıq kimi tibbi məhsulların, ofis və dəftərxana ləvazimatlarının, avtomobil ehtiyat hissələrinin, habelə tekstil və qeyri-tekstil parçalar, liflər, iplik, xalçalar, döşəklər, uşaq bezləri, gigiyenik məhsullar, oyuncaqlar, bağ mebeli, gül dibçəkləri, ərzaq podnosları, torbalar, həsir kisələr, müxtəlif təyinatlı torlar, idman çantaları, iri həcmli kisələr, yorğan çantaları, təhlükəsizlik kəmərləri, fırça və süpürgə içlikləri, diş fırçaları, xalça altlıqları, nəm salfet və dəsmallar, üzlük materialları, idman paltarları, ərzaq qabları, butulkalar, içki çubuqları, birdəfəlik boşqablar, qablaşdırma materialları, nazik plyonkalar, plastik təbəqələr, borular, isti və soyuq su borucuqları, fittinqlər, müxtəlif təsərrüfat malları, laminasiya materialları, yapışqan lentlər, su-izolyasiya materialları, kanatlar, kəndirlər, zibil torbaları, yol konus nişanları, vannalar, poddonlar, qutular, çadırlar, qoruyucu geyimlər, süni qazon və yolkalar kimi müxtəlif hazır məhsulların istehsalında tətbiq edilə bilər.

Öz davamlılığı, möhkəmliyi, rəng solmazlığı və istifadə rahatlığına görə PE və ya PP tekstil və istehsal sənayesində geniş istifadə edilir. Bunlar həmçinin pas, kif, sürtünmə və gün işığından zədələrə qarşı da yüksək davamlılığa malikdir. İstər quru, istərsə də yaş vəziyyətdə bu xassələri dəyişmədiyinə görə onlar təsirə davamlı olur və bu materiallardan hazırlanan məhsullar uzun illər istifadəyə tab gətirərək öz keyfiyyətini itirmir.

## Süni şam və küknar ağacları

Yeni ildə polipropilendən hazırlanan süni şam və küknar ağacları hər il yüzlərlə evi bəzəyir.





## Süni qazonlar

Süni qazonlar təbii ot görünüşü və təəssüratı yaradan tekstil olaraq hətta təbii ota nisbətən bir sıra üstünlüklərə malikdir. Süni ot PE və ya PP-dən hazırlanır: yaşayış evləri ətrafında qazon üçün PP, ucuz növ qazon istehsalı üçün isə YSPE daha uyğundur.



## İsti alt paltarları

Qiymət baxımından sərfəli olduğundan polipropilen isti alt paltarlarının istehsalında geniş istifadə olunan materialdır. O, bir çox materiallardan ucuz olduğuna baxmayaraq, onların bir çox üstünlüklərinə malikdir, məs., polipropilen hətta islandıqda belə bədən istisini qoruyur, möhkəmdir və ondan uzun müddət istifadə etmək olur. Digər materiallarla müqayisədə daha tez quruyur və dəridəki nəmi tez hopdurur. Geyimin çəkisi çox az olur.





## Qoruyucu geyimlər

İstər yanğın söndürmə xidmətində, istərsə də əczaçılıq sənayesində istifadə olduğundan asılı olmayaraq ən yaxşı qoruyucu geyimlər "spanbond" növlü qeyri-toxunma polimer parçalardan hazırlanır. Həm kənar maddələrin daxilə nüfuzunu sipərləyən, həm də buxarın bayıra çıxmasına imkan verən xüsusi hava keçirən qoruyucu qatı sayəsində bu parça geniş çeşidli qoruma təyinatlı malların istehsalı üçün ideal materialdır. Onun hazırlanması üçün son dərəcə möhkəm, nazik yekparə YSPE liflərin termik üsulla sıx, homogen, yüngül və yumşaq, hava keçirən və lifləri çıxmayan (tiftiklənməyən) möhkəm parçaya çevrilməsi yolu ilə həyata keçirilir. Məhz hazırlanma üsulu sayəsində kənar təsirlərdən qoruma xassələrini qazanan bu parçaya hər hansı nazik səthi qoruyucu qat əlavə etməyə ehtiyac olmur. Digər tərəfdən də bədəndən çıxan nəmi bayıra ötürmək qabiliyyəti olan belə qoruyucu geyim istifadəçilərin rahatlığını xeyli artırır.








## Xalçalar

Yun və neylonla müqayisədə, polipropilen lifindən toxunmuş xalçalar son dərəcə az çirklənir. Bu isə tez-tez maye dağıdan və ətrafı çirkləndirən azyaşlı uşaqları olan ailələr üçün ideal seçim ola bilər. Aşınmaya gec məruz qalan polipropilen döşəmədə illərlə istifadəyə tab gətirə bilir; neylon qədər davamlı olmasa da, işə yaxşı yarayır. Yun və ya neylon xalçalarına nisbətən, polipropilen xalçaların rəngi də daha uzun müddət solmur.



## Mətbəx və məişət əşyaları

Kimyəvi məhlullara, əsaslara və turşulara qarşı yüksək davamlılığına görə polimerlər kimyəvi inersiyaya malikdir və mətbəx və məişət əşyalarının istehsalında geniş istifadə olunur. PP və ya YSPE-dən hazırlanan məhsulların tərkibində insan orqanizmi üçün çox təhlükəli ola biləcək bisfenol-A yoxdur, buna görə də onlardan (həmçinin polietilen tereftalat kimyəvi maddəsindən və az sıxlıqlı polietilendən (LDPE)) hazırlanan məhsullar "daha təhlükəsiz" plastik hesab edilir və ərzağın saxlanması üçün istifadə olunur. Plastik materiallar öz kimyəvi tərkibindən asılı olaraq yeddi kateqoriyaya bölünür. Təhlükəsiz şəkildə istifadə və təkrar istifadə edə biləcəyiniz qablaşdırmanı seçmək üçün siz həmin kod nömrələrindən istifadə edə bilərsiniz.

Sağlamlıq üçün daha təhlükəsiz plastik növləri










## Qablaşdırma və saxlama

Polimerlər saysız-hesabsız qablaşdırma və saxlama məqsədləri üçün istifadə edilə bilər, belə ki, polimer qablarda su, ərzaq, gigiyena məhsulları (məsələn, şampun, ketçup, krem, losyon və s.) və ya təhlükəli kimyəvi maye və gellər (benzin, ləkəçıxaran gel, boyalar və s.) saxlamaq olar.














## Tibbi təyinatlı mallar

Dərman və əczaçılıq qablaşdırması məhsullarından tutmuş birdəfəlik tibbi avadanlıqlar, şprislər, borucuqlar, cərrahiyyə alətləri və bahalı laboratoriya məhsullarına qədər geniş çeşiddə tibbi məhsullar polimerlərdən hazırlanır. Materialların kimyəvi, termik, optik, mexaniki və maqnit xassələri ilə bağlı tələblər müəyyən qatqılar əlavə etməklə çox yaxşı tənzimlənir. Misal üçün, plastik və polimerlər üçün antimikrob qatqıları bakteriyaya, bio-plyonkalara, göbələk və kifə qarşı mükəmməl qoruma təmin etməklə, bütün dünyanın səhiyyə müəssisələrində xəstəliklərin yayılmasının qarşısını alır. Anti-mikrob plastiklər həkim və pasiyentlərin müntəzəm toxunduğu səthləri bakteriyalardan qoruyur və hətta bakteriyaları məhv edə bilər. Üstünlüklərinə gəlincə, metal cihazlar sürtünmə və üzvi maddələrlə təmas nəticəsində sıradan çıxdığı halda, plastik materiallar öz elastikliyi və struktur möhkəmliyi sayəsində sərt gərilməyə davam gətirir və daha uzunömürlü olur. Bəzi hallarda plastiklər korroziya səbəbindən baş verən maddi itkilərin sayını azalda bilər. Plastik əşyaların istehsal edilməsi daha ucuz, əvəz edilməsi isə daha asandır ki, bu da pasiyentə qulluq sahəsində maddi resurslara qənaət etmək imkanı verir. Məsələn, təkrar istifadə edilə bilən plastiklərlə müqayisədə metaldan və ya başqa materiallardan hazırlanan tibbi məhsulların istismar müddəti qıssadır. Bundan əlavə, plastiklər şüşə kimi çatlamadığına görə, təhlükəli maddələrin saxlanmasını və vacib nümunələrin qorunmasını ümumilikdə daha təhlükəsiz edir.







## Ev və bağ mebeli



Homopolimerlərdən hazırlanan plastiklər nisbətən möhkəmdir və ev və bağ mebeli daxil olmaqla bir çox sahələrdə istifadə edilə bilər. Taxta və təbii parçalar kimi üzvi maddələrdən fərqli olaraq plastiklər çürümür, paslanmır, şişmir və hətta nəm və ya yaş mühitin təsirinə uzun müddət məruz qaldıqda deformasiyaya uğramır. Polietilen “inersiyalı” materialdır və kif atmır. Polipropilenə nisbətən daha az statik yük götürən PE daha az toz və çirk yığır. Ultrabənövşəyi (UB) şüaların (günəş şüası) təsirinə məruz qalma nəticəsində çatların və xarab olmanın qarşısını almaq üçün istehsal zamanı materiala xüsusi qatqılar əlavə edilməlidir. Digər tərəfdən, PP-lər çatlamaya qarşı yüksək davamlılığa, yüksək ərimə nöqtəsinə və yaxşı dielektrik xassələrə malikdir. Plastik mebelin üstünlükləri göz qabağındadır. İti küncləri olmayan mebellər uşaqlar üçün daha təhlükəsizdir. Rahat və müxtəlif üslublu mebellər məhdud büdcələrə uyğun seçim olaraq plastikdən hazırlana bilər. Canlı rəngləri olan plastikdən istehsal edilən belə mebellərlə istənilən sahənin görünüşü və əhvalı-ruhiyyəsini dəyişmək olar. Plastik istənilən formaya asanlıqla salına bilər və naxışlarına asanlıqla müxtəlif dizayn verilə bilər. Yüngül plastik mebel çox güc və ya yardım tələb etmədən asanlıqla istənilən rahat yerə çəkilə bilər. Plastik mebel vasitəsilə ağacların kəsilməsi və bununla da meşələrin qırılması azaldıla bilər.



## Hovuzlar

Polimerdən hazırlanan üzgüçülük hovuzlarının divarları heç pas atmır və adətən korroziyanı sürətləndirən duzlarla təmasa tab gətirir. Hovuzlar üçün nəzərdə tutulan polimer divar panelləri “premium” keyfiyyəti təmin etməklə yanaşı sərfəli qiymətə təklif olunur. Belə plastik hovuzların üstünlükləri onların ucuzluğunda, çəkisinin az olmasında, asanlıqla quraşdırılmasında və son tamamlama qatının rahat təmir edilə bilməsindədir. Səthi rənglənmədiyinə görə bu panellərin rəngi solmur və vaxt keçdikcə rəngi getmir. Plastik üzgüçülük hovuzlarının çatışmazlıqlarından biri ondan ibarətdir ki, onlar çatlaya bilər və kənarından kiçik hissələr qopub ayrıla bilər. Üstün cəhəti isə ondan ibarətdir ki, həm çatları, həm də qopma hissələri təmir etmək olur. Çat və ya sınıqları təmir etmək üçün içində bütün zəruri ehtiyat hissələri olan təmir dəstləri satışda mövcuddur. Plastik panellərin səthi məsaməsizdir və şüşə kimi gözəl tamamlama qatına malikdir ki, bu da həmin panelləri hovuzun interyer tərtibatı üçün mükəmməl materiala çevirir. Çirk tutmağa qarşı davamlı olduğundan plastik panellərin təmizlənməsi də asandır.



## Təsərrüfat malları

Polimerlərdən saysız-hesabsız təsərrüfat və digər mallar istehsal edilir:


















## Rənglənmə

Polimer materiallar asan şəkildə rənglənə və üzərində 3D printerlə çap edilə bilər:






## İdman malları

İdman geyimləri, idman avadanlığı və ya digər ləvazimatlar daxil olmaqla idman mallarının çoxu plastikdən hazırlanır. Çəkisinin az olması plastiklərin istifadəsinə təsir edən ən mühüm amillərdən biridir. Yüngül və yüksək keyfiyyətli plastikdən istifadə etdikdə idman mallarının çəkisi əhəmiyyətli dərəcədə azalır, nəticədə isə keyfiyyət yüksəlir və idmançıların rahatlığı xeyli artır.

Futbol topları da hal-hazırda dəridən deyil, plastikdən hazırlanır. Materialda dəyişikliyin səbəbi  ondan ibarətdir ki, plastik suyu özünə çəkmir və havada yaxşı hərəkət etmə qabiliyyətinə malikdir. Bundan başqa, plastik rütubəti hopdurmur. Oynaqlara düşən yükü azaltmaq və istifadəçiyə daha çox rahatlıq yaratmaq üçün idman ayaqqabıları və tennis raketkalarında plastikdən istifadə edilir. Müasir tennis raketkaları yüksək texnoloji xassələri olan plastikdən hazırlanır. Bir tərəfdən çəkinin az olması və möhkəmlik, digər tərəfdən isə davamlılıq seçimin məhz plastik materiallara düşməsi ilə nəticələnir.











## Yüksək temperatura davamlılıq

YSPE-ə nisbətən PP daha yüksək temperaturlara tab gətirə bilir və məhsulun sterilləşdirilməsi yaxud qızdırılması tələb olunduğu hallarda, məsələn, qabyuyan maşında yuyulmaya davamlı olan mətbəx əşyalarının və ya çayniklərin istehsalında istifadə oluna bilər. Aşağıdakı şəkildə göstərilən elektrik çaynikin gövdəsi, dəstəyi, qapağı, elektrik düyməsi, menzurkalı pəncərəsi, qızdırıcı elementi, lüləyinin örtüyü və qismən filtri yəni, demək olar ki, bütün hissələri PP-dən hazırlanır.






## Elektronika sənayesində tətbiqi

Plastiklər elektronika sənayesində istifadə edilən materialların ikinci ən böyük qrupudur. Yaxşı emal olunma və izolyasiya qabiliyyəti, elastiklik, gərilməyə davamlılıq və çəkisinin az olması kimi xassələri texniki plastikdən geniş istifadəyə əsas verir. Müxtəlif qatqılar vasitəsilə texniki plastikin kimyəvi tərkibi istənilən şəkildə məqsədə uyğunlaşdırıla bilər. Buna görə də bu plastiklər korpus, kabel və paylaşdırıcı lövhələrin hazırlanması üçün çox uyğundur. Təhlükəsizlik aspektinə gəldikdə, tərkibinə alova tab gətirən qatqılar əlavə olunmuş texniki plastiklər yaxşı seçim ola bilər. Belə plastiklərin alovlanma qabiliyyəti aşağı düşür və közərmə riski azalır. Polietilen yaxşı elektrik izoləedici materialdır. O, azan cərəyana yaxşı müqavimət göstərir, lakin asanlıqla elektrostatik yük götürür ki, bunu da qrafit, karbon hisi və ya antistatik maddə əlavələri ilə azaltmaq olar.











## Dekorativ əşyalar

Polimerlər gül dibçəkləri, gül qabları, vazlar, dekorativ divar panelləri, plastik döşəmə və s. daxil olmaqla dekorativ əşyalarda da geniş istifadə edilir.











## Avtomobil sənayesnidə tətbiqi

Plastik avtomobil sənayesində istifadə edilən mühüm materiallardan biridir. Orta hesabla bir avtomobilin konstruksiyasında 1000-dən çox müxtəlif plastik hissədən istifadə edilir. Plastikin istifadə sahəsi sonsuzdur. Panellər, arxa faraların korpusu, displeylər, qabaq fara komponentləri, mərkəzi konsollar, qapı panelləri, bardaçoklar, fincan saxlayıcıları, alət panelləri, dekorativ elementlər, idarəetmə vasitələri, pəncərə altı rəflər, sütun işləmələri və avtomobilin interyer işıqları plastikdən istehsal edilən sadəcə bir neçə nümunədir. Bu gün, hətta Mersedes-in ulduz nişanı da plastikdən hazırlanır. Avtomobil sənayesində plastikdən geniş surətdə istifadə edilmənin səbəbləri mükəmməl “qiymət-keyfiyyət” nisbəti, yaxşı işləmə qabiliyyəti və geniş çeşiddə qəliblərin mövcud olması, zərbəyə yaxşı tab gətirməsi, hava şəraitinin və kimyəvi maddələrin təsirinə yüksək davamlılığı və yüngül çəkisinin olmasıdır. Bundan əlavə, son istifadəçi yanacaq sərfiyyatının azalması hesabına da qənaət edə bilər. Polietilen möhkəmdir və soyuq temperaturlara davam gətirməsinə imkan verən fiziki xassələrə malikdir.






## Sukeçirməzlik

Suda islanmayan polimerlər çadırların, su keçirməz astarların və digər izolyasiya materiallarının istehsalı üçün əlverişlidir.




## Oyuncaq və əyləncə məhsulları

Oyun meydançaları, akvapark tunelləri, uşaq çadırları, yumşaq oyuncaqlar və s. daxil olmaqla polimerlərdən saysız-hesabsız oyuncaq və əyləncə məhsulları istehsal edilə bilər.













Bilirsiniz?

# Plastik Fantastika

Okeanları zibilləyən plastikləri götürüb onlardan yollar çəkməyə nə deyirsiniz?
Təsəvvür edin ki, belə yolların çəkilməsi aylar deyil, bir neçə gün çəksin. Həm də, belə yollar üç dəfə daha artıq xidmət etsin. Sonsuz yol təmiri və yol hərəkətinin pozulması tarixdə qalsın. Bir də, kabel və boru çəkmə, və şəhərin su problemləri bir göz qırpımında həll edilmiş olsun. Təsəvvür edirsiniz?
Bu, uzaq gələcəkdən gələn ssenari kimi səslənə bilər, amma bir Hollandiya şirkəti bu röyanı hal-hazırda reallığa çevirməklə məşğuldur. KWS, VolkerWessels company, Wavin və Total şirkətləri PlasticRoad kimi tanınan plastik yolların yaradılması məsələsi üzərində işləyir. PlasticRoad yolunun hər komponenti elə layihələndirilir ki, həm yaradılmasında işlənmiş plastiklər tətbiq olunsun, həm də öz komponentləri təkrar emaldan sonra yenidən dövrəyə buraxılsın.

## Plastik Yol

**Yarımfabrikat və modul əsaslı**
PlastikRoad yollarının yarımfabrikat və yüngül çəkili modul halında istehsal olunması belə yolların tikilməsini və texniki xidmətini ənənəvi yol konstruksiyaları ilə müqayisədə daha asan, rahat və rentabelli edir.

**İçində boşluq olan konstruksiya**
PlasticRoad yollarının içində mövcud olan boşluqlarda (müvəqqəti olaraq) su yığıb saxlanmaq olar ki, bu da ifrat yağıntı zamanı subasmaların qarşısını almağa imkan verir. Bu cür boşluqları kabel və boruların çəkilməsi üçün də istifadə etmək olar və bu da, yerqazma işləri zamanı kabel və boruların zədələnmə hallarının qarşını ala bilər. Bundan başqa həmin boşluqlardan datçıkların və ya elektrik akkumulyatorların doldurulması üçün vasitələrin quraşdırılması daxil olmaqla bir çox başqa əlverişli məqsədlər üçün də istifadə etmək olar. İnteqrə edilmiş günəş hücrələri isə yolu daha rentabelli edər və hətta günəş işığını udmaqla əlavə enerji yaratmaq imkanı verə bilər. Datçıklar yol hərəkəti, temperatur, qar və buzlanma haqqında real vaxt rejimində məlumat verərək yol hərəkətinin təhlükəsizliyini artıra və tıxacların qarşısını ala bilər.

**Dayanıqlı məhsul**
PlasticRoad həm təkrar emal edilən plastikdən hazırlanan, həm də təmir zamanı emala göndərilərək təkrar istifadə üçün yararlı məhsuldur. Bu yolların istismar müddəti uzun olduğuna, habelə quraşdırılması zamanı yolsalma texnikasından az istifadə olunduğuna görə, ənənəvi yol konstruksiyaları ilə müqayisədə atmosferə daha az karbon qazı ifraz edilir.



Foto: Anne Koudstaal (solda) və Simon Jorritsma (sağda) əmindirlər ki, gələcəyin yolları plastikdən hazırlandıqdan üstü ənənəvi qara rəngdə olmayacaq.

Bu konsepsiyanı fikirləşib tapan və ondan bəri KSM şirkətinin asfalt üzrə məsləhətçiləri olaraq fəaliyyət göstərən Anne Koudstaal və Simon Jorritsma ilk pilot layihənin 2017-ci ildə həyata keçirilməsi üzərində çalışırlar. Bu ideyanı irəli sürməzdən əvvəl onlar bələdiyyələrin, bölgələrin, regional su təminatı orqanlarının və əlaqədar podratçıların üzləşdiyi problemləri öyrənib müzakirə etməklə məşğul idilər. Problemlər sırasına plastik tullantıların yığılması, ifrat yağıntılar, qruntun alt qatının möhkəmləndirilməsi və sıx yeraltı kommunikasiyaların seyrəkləndirilməsi də daxil idi. Onlar bəsit lakin uzaqgörən bir ideya irəli sürdülər - əgər tullantı poliqonlarından və okeanlardan toplanan plastik yüngül çəkili yarımfabrikat konstruksiyalı yolların istehsalı üçün istifadə edilsə, bir sıra geniş çeşidli problemi tez bir zamanda həll etmək olar.






Şirkətin uzunmüddətli məqsədi PlasticRoad yollarının tikilməsidir ki, bu yollar…

| 3 dəfə daha artıq xidmət edir | 70% daha tez tikilir | 4x dəfə daha yüngüldür | 100% təkrar emala yararlıdır |
|---|---|---|---|

- Yüngül çəkili yarımfabrikat hissələrdən ibarət tikinti.
- Daha qısa tikinti müddəti (bir neçə ay daha tez) və texniki xidmət (təmir) üçün daha az vaxt tələb edir.
- Daha yüksək keyfiyyət və daha uzun istismar ömrü (homogen tərkib və yarimfabrikat hissələr).
- Az texniki xidmət tələb edir və ya heç tələb etmir. Yolun materialı praktiki olaraq hava şəraitinin və alaqların təsirinə məruz qalmır.
- Davamlı xidmətə yararlıdır. Məqsəd PlasticRoad yollarını 100% emal olunan plastikdən hazırlamaq və tam təkrar istifadəsini təmin etməkdir. Bu tam olaraq Qapalı Dövrə strategiyasına və qapalı dövrəli qənaət prinsiplərinə uyğun gəlir.
- Fəzanın ikiqat istifadə edilməsi. Yolun içindəki boşluqlar suyun yığılıb saxlanması, kabellərin və boruların çəkilməsi üçün istifadə oluna bilər.
- Yol hərəkəti təhlükəsizliyinin daimi təmin olunması və yağıntıların axıdılması imkanı.
- Yolun səthində və ətrafındakı hər şey yarımfabrikat halda hazırlana bilər (yol nişanları, məhəccərlər).
- Bu konsepsiya əlavə innovasiyalar üçün imkan yaradır. Məs., günəş işığı hesabına qızdırılan yollar, işıqlandırma dirəkləri və yol hərəkətinin intensivliyini ölçən datçıklar.
- Plastik tullantıların yaratdığı sosial məsələlərin həllinə yardım.

Bu üç şirkət bu innovativ konsepsiyanın işlənib hazırlanmasında öz təcrübəsi ilə iştirak edir. KWS şirkəti yol tikintisi və asfalt istehsalı sahəsində Hollandıya bazarının aparıcı şirkətidir. Plastik materialların təkrar emalı sahəsində lider olan  WAVIN şirkəti həm də yağmur suyunun drenajı üçün məhsullar istehsal edir. TOTAL plastik materialların xassələrinin yaxşılaşdırılması, onların təkrar emalı və istehsal metodikalarının işlənib hazırlanmasında aparıcı rol oynayır. Bu konsorsium hal-hazırda PlastikRoad yollarının ən əlverişli üsulla tikilməsi məsələsi üzərində ciddi cəhdlə çalışır. İlk prototipin yaradılması bu yaxınlarda başlanacaq. Bir neçə bələdiyyə, bölgə və regional su təminatı orqanı artıq bu işə maraq göstərmiş və PlastikRoad yolunun pilot variantının sınaqdan keçirilməsi üçün yer təklif etmişdir. PlasticRoad texniki, ekoloji və TT tələbələrinə cavab verdikdə, sınaq keçirmək üçün pilot yol tikiləcək. İlkin mərhələdə, belə PlastikRoad yolu velosiped yolu kimi istifadə olunacaq. İlk prototip yolun tikintisinin başa çatması 2017-ci ilin sonunda gözlənilir.

Əlbəttə, çətinliklər də mövcuddur. Təkrar emal edilmiş plastik ultrabənövşəyi şüalardan müəyyən müdafiə tələb edəcək. Bundan əlavə, material alovlanmaya davamlı və az səs salan olmalıdır. Amma, Anne and Simon ümid edirlər ki, belə çətinliklərin öhdəsindən gəlmək olacaq. “Biz əvvəlcə kiçik velosiped yolundan başlamaq istəyirik. Sonra isə, bizim laboratoriya sınaqlarından və pilot layihələrdən əldə edəcəyimiz təcrübə və biliklərdən istifadə edərək daha böyük yollar tikmək istəyirik. Əsas material ərsəyə gəldikdən sonra, plastik yolların imkanları sonsuz olacaq”, - deyə onlar bəyan edirlər.

İstinad mənbələri:
https://www.plasticroad.eu/en/
http://www.smart-magazine.com/en/high-tech-road-ideas/



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KIMYA SƏNAYESINDƏ
YENI ÜFÜQLƏR AÇIRIQ

SOCAR
POLYMER